1_Layout 1 29.01.2024 18:34 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


№ 2 (666)

31 yanvar 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# YENİ STRATEJİ DÖVRÜN BAŞLANĞICI

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Yeni strateji dövrün başlanğıcı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziyalara verdiyi geniş müsahibə 2024-cü ilin ilk günlərinin ən maraqlı yeniliklərindən oldu. Müsahibənin geniş formatının həm ölkə, həm də dünya ictimaiyyətini maraqlandıran bir çox məqama təfərrüatlı aydınlıq gətirməsi Azərbaycan Prezidentinin mediaya açıqlıq, daxili və xarici auditoriya ilə sıx kommunikasiyalara sadiqlik ənənələrini göstərdi. Belə bir format Azərbaycan vətəndaşları və dünya ilə ünsiyyətin unikal, eyni zamanda son dərəcə effektiv formasıdır.

Bu gün müasir dünyamızın ən parlaq liderlərindən olaraq dövlətimizin başçısı İlham Əliyevin şəxsiyyətinə, onun müxtəlif regional və qlobal məsələlərə baxışlarına dünyada çox böyük maraq var. Belə geniş müsahibələr müxtəlif problemlərlə bağlı Azərbaycan Prezidentinin mövqeyini öyrənməyə, baş verən proseslərdən düzgün nəticə çıxarmağa, vəziyyətin axarını doğru dəyərləndirməyə geniş imkanlar yaradır.

Vətən müharibəsindəki qələbəmizdən, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpasına nail olduq. Hazırda Ermənistanla sülh razılaşmasının əldə olunması istiqamətində mühüm işlər aparılır. Azərbaycan vətəndaşları və beynəlxalq ictimaiyyət sülh proseslərini təbii ki, həssaslıqla izləyir, bu barədə məlumatları ən mötəbər mənbədən əldə etməyə çalışırlar.

### Tarixi seçki

Hazırda Azərbaycan dünya miqyasında müstəqil siyasəti, beynəlxalq aləmdə nüfuzu, regionda uğurlu fəaliyyəti ilə güclü ölkələr sırasındadır. İndi sülh danışıqları ilə yanaşı, ölkəmiz üçün ən mühüm siyasi hadisə fevralın 7-də keçiriləcək prezident seçkisidir. Bu, Azərbaycanın milli dövlətçilik tarixi üçün çox mühüm əlamətdarlıq kəsb edir. Bu seçki ilə dövlətçilik tariximizdəki müəyyən bir dövrə yekun vurulur və gələcək inkişaf baxımından çox strateji bir mərhələ başlanır. Azərbaycan Prezidenti də bu baxımdan 7 fevral seçkilərinin tarixi qiymətini və izahını verdi. Sentyabrdakı antiterror əməliyyatı ilə Azərbaycanın öz dövlət suverenliyini bərpa etməsi, Xankəndidə Dövlət Bayrağımızın ucaldılması həqiqətən epoxal bir hadisədir. Prezident İlham Əliyev dedi: "Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır". 7 fevral prezident seçkisi də bu yeni dövrə, yeni tarixi reallıqlara təsadüf edir.

### Yeni dövr, yeni çağırışlar

Burada maraqlı bir xronoloji dövr var ki, dövlətimizin rəhbəri müsahibəsində həmin məqama da aydınlıq gətirdi. 2023-cü ilin oktyabrında Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin 20-ci ildönümü tamamlandı. Bu, ötən 20 il ərzində tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanın milli dövlətçilik tarixi üçün son dərəcə mühüm xronoloji bir dövrdür. 20 ildən sonra yenidən prezident seçkisinin keçirilməsi, təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur.

Son 20 ilin tarixi 2003-cü ilin oktyabrında Azərbaycan xalqının nə qədər doğru seçim etdiyini göstərir. Həmin il keçirilən prezident seçkisi müstəqil tariximizin ən həlledici məqamı idi. O məqamda ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmiş oldu, xalq Heydər Əliyev siyasətinin davam etdirilməsinə səs verdi. Bir sözlə, 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi.

Xalqımızın 20 il əvvəlki seçimi bugünkü Azərbaycanı, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasına gətirib çıxardı. "Sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin son nidası idi" - Prezident İlham Əliyev müsahibəsində qeyd etdi.

7 fevral prezident seçkisindən sonrakı illərin, təbii ki, özünəməxsus çağırışları olacaq.

### Ədalətin zəfəri

Prezident İlham Əliyevin gələcəyə strateji baxışına görə, Azərbaycana qarşı ənənəvi mənbələrdən gələn mənfi münasibət bundan sonra da dayanmayacaq. Elə bəzi ölkələrin Ermənistanı silahlandırmaq cəhdləri də ölkəmizi daim təzyiq altında saxlamaq məqsədini daşıyır. Bu, Azərbaycanı bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada Fransa yenə ön plandadır. Dövlət rəhbərimiz bəyan etdi ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur. Ona görə biz heç vaxt sakitləşməməliyik. Bu məqamları nəzərə alaraq, Azərbaycan dövləti tarixi zəfərimizdən sonra da müdafiə məsələlərinə yenə böyük diqqət ayırır. Bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Azərbaycan dövləti bundan sonra da özünü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcək.

Eyni zamanda bizə qarşı qanlı müharibə aparmış, vandallıqlar etmiş, Xocalı soyqırımını törətmiş, şəhərlərimizi, kəndlərimizi dağıtmış canilərin bu əməlləri də unudulmayacaq, onların ədalət mühakiməsi qarşısında öz cinayətlərinə görə layiqli cəzalarına çatmaları təmin olunacaq.

### Zəngəzur dəhlizi açılmalıdır

Dövlət rəhbərimiz müsahibəsində hazırda Ermənistanla aparılan sülh danışıqlarının bəzi təfərrüatlarına da toxundu. Prezidentin mövqeyindən belə aydınlaşdı ki, sülh üçün zəmanətçilər istəyən Ermənistandan fərqli olaraq Azərbaycan bununla bağlı heç bir zəmanətçiyə ehtiyac duymur və sülhün ikitərəfli formatda imzalanmasının tərəfdarıdır.

Azərbaycan Prezidenti iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı xəritələr məsələsinə də aydınlıq gətirdi. Tarixi reallıqlara istinadən həm ölkə, həm də dünya ictimaiyyətinin diqqətinə çatdırdı ki, hazırda Ermənistanın paytaxtı olan İrəvan şəhəri 1918-ci ildə, sovetləşmədən sonra isə Qərbi Zəngəzurun böyük bir hissəsi Ermənistana verilib. Məhz buna görə Ermənistan və onun havadarları sərhədlərin müəyyənləşdirilməsi üçün ötən əsrin 70-ci illərinin xəritələrini əsas götürmək istəyirlər.

Dövlət rəhbərimiz Zəngəzur dəhlizi ilə bağlı məsələlər üzrə də fikirlərini bölüşərək qeyd etdi ki, Azərbaycanın bununla bağlı irəli sürdüyü təklif qətiyyən Ermənistanın suverenliyinə təhdid deyil, sadəcə, bu öhdəlikdən boyun qaçıran erməni tərəfi əsassız bəhanələr gətirir. Ən düzgün variant Azərbaycanın təklifidir. Əgər Zəngəzur dəhlizi açılmasa, Azərbaycan Ermənistanla heç bir başqa yerdə sərhədimizi bərpa etmək fikrində deyil.

### Azərbaycan beynəlxalq miqyasda xüsusi rola malik olacaq

Ali Baş Komandan Ermənistana və onun arxasında duranlara, bu ölkəni silahlandıranlara açıq mesaj verdi ki, Azərbaycana qarşı hər hansı bir təhlükə mənbəyi olarsa, dərhal məhv ediləcək. Azərbaycan Prezidenti Ermənistanın dünyadakı əsas havadarlarından olan Fransada Natəvanın heykəlinin təhqir edilməsinə də münasibət bildirdi və bunu vandalizm aktı kimi dəyərləndirdi. Ermənilərin təxminən 30 il ərzində vandalcasına dağıdıb talan etdiklərini Azərbaycan bu gün öz imkanları hesabına bərpa edir. Dağıdılmış yurdlarımızı yenidən qurur. İllərlə doğma yerlərinin həsrətini çəkən məcburi köçkünlər öz yurdlarına qayıdırlar.

Müsahibə zamanı verilən müvafiq suala cavab olaraq dövlətimizin başçısının "Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi və Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi. Bu, sadəcə olaraq, Azərbaycan xalqına həmrəylik və dəstək mesajı deyildi. Bu, müharibəyə qarışmaq istəyənlərə bir ciddi mesaj idi ki, kənarda durun. Ona görə Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır…" fikri isə Azərbaycan və Türkiyə qardaşlığının, həmçinin iki ölkənin liderləri arasındakı dostluq münasibətlərinin ifadəsidir.

2024-cü il Azərbaycan üçün daha bir mühüm məqamla əlamətdardır. Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 tədbirinə bu il ölkəmiz evsahibliyi edəcək. Azərbaycan COP29-un prezidenti kimi beynəlxalq miqyasda xüsusi rola malik olacaq. Dünyanın bir nömrəli beynəlxalq tədbirinin Azərbaycana həvalə edilməsi ölkəmizin bütün dünyadakı nüfuzunun göstəricisidir.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2023-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunan geniş Kollegiya iclası keçirilib.



İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisənin baş verdiyini, bunların arasında Azərbaycanın bütün ölkə ərazisində dövlət suverenliyinin bərpasının mühüm yer tutduğunu diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsində qazanılan Zəfərdən və ötən il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Ağdərə və digər ərazilər düşməndən azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının reallaşması üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir, təhlükəsizliyi etibarlı təmin edirlər.

Antiterror tədbirlərində 12 hərbi qulluqçunun və 8 polis əməkdaşının şəhid olduğunu vurğulayan nazirin təklifi ilə şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2023-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 36.811 cinayət qeydə alınıb, onlardan 87,8 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 360 fakt təşkil edib. Cinayətlərin 94,5 faizi və ya 34.783-ü daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdıqları hüquqazidd əməllər olmaqla 89,6 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 89,6, qeyri-aşkar şəraitdə baş verənlərin 84,6, şəxsiyyət əleyhinə olanların 98,4, onlardan qəsdən adam öldürmələrin 96,1, adam öldürməyə cəhdlərin 97,4, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, xuliqanlıqların 96,3, mülkiyyət əleyhinə olanların 79,6, o cümlədən soyğunçuluqların 98,1, quldurluqların və hədə-qorxu ilə tələb etmələrin 97,5, avtonəqliyyat vasitəsini qaçırmaların 97,2, dələduzluqların 92,1 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri isə 3,6 faiz yaxşılaşaraq 84,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 4.324 nəfər tutulub, 254 kriminal qrup zərərsizləşdirilib.

Eyni zamanda prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyini, 426 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğunu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyini, habelə Dövlət Təhlükəsizliyi Xidməti ilə sıx qarşılıqlı əlaqədə dini radikalizmə qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə önəmli nəticələrə nail olunduğunu xüsusi vurğulayan nazir həmin dövlət orqanlarının əməkdaşlarına və rəhbərliyinə təşəkkürlərini ifadə edib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də 2,3 faiz yaxşılaşaraq 87,8 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 108 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 53 nəfərin yeri müəyyən olunub.

**Davamı 2-ci səhifədə**

2_Layout 1 29.01.2024 18:35 Page 1



## 7 FEVRAL NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ GÜNÜDÜR



Ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisənin - növbədənkənar prezident seçkilərinin ərəfəsindəyik. Fevralın 7-də keçiriləcək seçkilərdə biz hərbi zəfər qazanan, ərazisi bütövləşən, suverenliyi tam bərqərar olunan dövlətin vətəndaşları kimi iştirak edəcəyik. Builki seçkilər müstəqil Azərbaycanın həyatında yeni bir dövrün başlanğıcıdır. Sözügedən dövr möhkəm dövlətçilik, hərbi qüdrət, müasir iqtisadiyyat, milli birlik və ictimai həmrəylik amillərinə əsaslanaraq ölkəmizin çoxşaxəli inkişafına, habelə hərtərəfli yüksəlişinə istiqamətlənəcəkdir.

Azərbaycan mütərəqqi seçki təcrübəsinə malik ölkədir. Seçkilərin azad və şəffaf keçirilməsi məqsədilə dövlətimiz tərəfindən bütün lazımi tədbirlər görülür.

Seçkilərdə iştirak etmək hər bir vətəndaşın konstitusion hüququdur.

Hərbi qulluqçular da bu prosesdə fəal iştirak edərək vətəndaş məsuliyyəti nümayiş etdirirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli müvafiq Qərarı ilə təsdiq edilmiş “Hərbi qulluqçuların seçkilərdə (referendumda) iştirakına dair Təlimat”da qeyd olunduğu kimi, Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) hərbi qulluqçuların iştirakı və hərbi hissələrdə seçki məntəqələrinin yaradılması, həmin məntəqələrin seçki komissiyalarının fəaliyyəti qaydaları Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12.1-ci, 13.1-ci, 14.2.1-ci, 35.5-ci, 36.7-ci, 46.6-cı, 46.9-cu, 47.3-cü, 104-cü maddələri, həmçinin “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsi və bu təlimatla tənzimlənir.

Təlimatın 1.2-ci maddəsində hərbi qulluqçuların Azərbaycan Respublikasının digər vətəndaşları kimi aktiv və passiv seçki hüququnun olduğu, eləcə də bu hüquqları həyata keçirərkən onlarla eyni hüquq və vəzifələrə malik olmaları göstərilib.

Həmçinin təlimatın 3-cü maddəsində yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılması barədə tələblər də öz əksini tapıb.

Bundan əlavə, təlimatın 4-cü maddəsində hərbi hissələrin ərazilərində seçki məntəqələrinin yaradılması və səsvermənin təşkilinə dair tələblər maddənin müvafiq bəndlərinə uyğun qeyd olunub.

Məlumat üçün qeyd edək ki, fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərilə əlaqədar, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da müvafiq qanunvericiliyin tələblərinə uyğun tədbirlər planlaşdırılaraq, icrası nəzarətə götürülüb. Belə ki, Azərbaycan Respublikasının Daxili işlər nazirinin təsdiq etdiyi 26 dekabr 2023-cü il tarixli “2024-cü il fevral ayının 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə dair tədbirlər planı”nda, eləcə də bununla əlaqədar xidmətin aparılmasının gücləndirilmiş variantda təşkil edilməsi ilə bağlı Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrində və Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarə rəisi tərəfindən təsdiq olunmuş “DİN-in Daxili Qoşunlarında 2024-cü ilin 7 fevral tarixində növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq və keçirilməsi dövrü üçün tədbirlər planı”nda müvafiq idarə, şöbə və xidmətlər, o cümlədən vəzifəli şəxslər tərəfindən həyata keçiriləcək vəzifələr müəyyən edilib.

Qeyd edək ki, seçkilərə hazırlıq dövründə və keçirilməsi zamanı Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə döyüş hazırlığının, sayıqlığın artırılması, yüksək intizamın və ictimai qaydanın qorunmasının təmin edilməsi, xidmətin təşkilinə nəzarətin gücləndirilməsi, həmçinin tərbiyə işinin mövcud üsullarından istifadə etməklə, hərbi qulluqçularla müvafiq plana uyğun mövzular üzrə məşğələlərin keçirilməsi də məhz bu qəbildəndir.

**Mətbuat xidməti**

## MƏŞĞƏLƏLƏR ZAMANI HƏRBİ QULLUQÇULARIN FƏRDİ HAZIRLIQLARININ ARTIRILMASINA ÖNƏM VERİLİR

67987 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstədir. İctimai asayişin və təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi, qəflətən qarşıya çıxan tapşırıqların icrasına hazır olmaq dəstənin əsas vəzifələrindəndir.





Hərbi hissənin komandiri polkovnik Zəfər Yusibov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, mütəmadi olaraq müxtəlif təlimlərə cəlb olunan xüsusi təyinatlılar yüksək peşəkarlıq və xüsusi fədakarlıq nümayiş etdirirlər.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Zamin Rəsulov isə dəstənin 2023-cü ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Dəstə komandirinin müavini-qərargah rəisi mayor Nemət Ağayev vəzifə borclarından irəli gələn tələblərdən danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşqlər davamlı olaraq keçirilir. Şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir.



Mayor N.Ağayev şəxsi heyətin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bundan sonra da yorulmadan, əzmlə çalışacağını, komandanlığın etimadını doğruldacağını söylədi. O, intizamlı və fəal hərbi qulluqçulardan baş leytenant Zakir Babayev, gizir Cavid Məmmədov, baş çavuşlar Hüseyn Quliyev və İxtiyar Hüseynovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib



**Əvvəli 1-ci səhifədə**

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 494 fakt müəyyən edilib, həmin cinayətlərə görə 262 nəfər tutulub. Ümumilikdə 12.648 odlu silah və 2,5 milyona yaxın sursat aşkarlanıb.

Qeyri-leqal dövriyyədən 3.487 ədəd müxtəlif nominallı saxta əskinas, istifadə müddəti ötmüş 6.310 ton yeyinti məhsulu və tikinti materialı çıxarılıb.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirərək bildirib ki, qanunsuz dövriyyədən 4 ton 464 kiloqram, yəni 2022-ci illə müqayisədə 1 ton 46 kiloqram çox narkotik vasitə götürülüb, 620 kq narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 366 fakt aşkarlanıb və müvafiq cinayətlərlə əlaqədar 160 cinayətkar qrup zərərsizləşdirilib. Nazir bu növ cinayətlərlə mübarizədə vətəndaşların iştirakını, məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatın keçirildiyini bildirərək onlara təşəkkürlərini çatdırıb.

Həmçinin yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Hesabat ilində 5.389, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 3.823 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan uğurlardan, nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə maneə yaradan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını tələb edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət funksiyalarını daha böyük peşəkarlıqla həyata keçirməsinin vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

## HƏRBİ HİSSƏDƏ VETERANLARLA GÖRÜŞ

Yanvarın 24-də 25031 saylı hərbi hissədə şəxsi heyətin Daxili Qoşunların sıralarında xidmət etmiş, hazırda ehtiyatda və istefada olan müharibə, habelə Silahlı Qüvvələr veteranları ilə görüşü keçirilib. Hərbi hissəyə gələn qonaqlar öncə qərargahın binasında Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini əks etdirən fotostendlərlə tanış olublar.







Klubda keçirilən tədbirdə şəhidlərin xatirəsi ehtiramla anılıb. Tədbiri açan daxili qoşunların baş idarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov qonaqları komandanlıq adından salamlayıb. O, qoşunlarda veteranlarla və şəhid ailələrinin üzvləri ilə görüşlərin keçirilməsi ənənəsinin formalaşdığını, belə tədbirlərin şəxsi heyətin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə xidmət etdiyini vurğulayıb. Qeyd edib ki, veteranlarımızın keçdikləri yol gənclərə örnəkdir və həmişə onların məsləhətlərini, öyüd-nəsihətlərini eşitməyə ehtiyac var.

Daxili qoşunların veteranlar şurasının sədri Çingiz Daşdəmirov tədbirdə çıxış edərək hərbi xidmət illərini xatırlayıb, qoşunların böyük inkişaf yolu keçdiyini, dövlətçiliyimizin keşiyində daim mətin dayandığını, sıralarımızda qəhrəman oğulların yetişdiyini diqqətə çatdırıb. Veteran xüsusi vurğulayıb ki, hərbi qulluqçularımız vətənpərvər və yenilməzdirlər.

İstefada olan general-mayor Şirin Xəlilov öz çıxışında zəngin xidmət təcrübəsindən bəzi məqamları bölüşüb. Hərbi xidmətin gənclər üçün mənəvi tərbiyə məktəbi olduğunu deyib.

O, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu sahəsində mühüm nailiyyətlərin əldə edildiyini, Daxili Qoşunların da məhz bu dövrlərdə təqdirəlayiq inkişaf edərək müasir tələblərə cavab verən hərbi quruma çevrildiyini bildirib.

General-mayor Ş.Xəlilov Vətən müharibəsində möhtəşəm hərbi zəfərimizin tarixi əhəmiyyətindən də danışıb.

Veteranlar Murad Mürsəlov, Səfxan Bayramov, Akif Məhərrəmov çıxışlarında xalqımızın mübarizliyi, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda çətin sınaqlardan keçdiyi barədə danışıblar. Onların sözlərinə görə, xalqımız həmişə qələbəmiz naminə həmrəylik göstərib, möhtərəm Prezidentimiz İlham Əliyevə inam və dəstək, ordu-xalq birliyi bizi misli görünməyən zəfərə qovuşdurub.

M.Mürsəlov, S.Bayramov, A.Məhərrəmov Daxili Qoşunların keçdiyi şərəfli yol, bu gün cəmiyyətdə nüfuzu, dövlət başçısının hərbi qulluqçularımıza diqqət və qayğısı barədə də fikirlərini bildiriblər.

Daxili Qoşunların sıralarına yeni qəbul olunan əsgərlərə hərbi xidmətlə bağlı dəyərli tövsiyələrini də söyləyən veteranlar nizam-intizamlı, əzmkar olmağın, öz vəzifələrinə vicdanlı münasibətin, təlimlərdə çalışqanlığın, hərbi kollektivdə yoldaşlıq münasibətlərinin qorunmasının vacibliyini diqqətə çatdırıblar.

Murad müəllim öz çıxışında vətənpərvərlik mövzusunda şeirini də səsləndirib.

Vətən müharibəsi qazisi Şiraz Həsənov döyüşlərdə iştirakı, şəhid və qazi silahdaşlarının şücaət nümunələri barədə tədbir iştirakçılarını məlumatlandırıb. Müharibədə vətənpərvərlik əqidəsinin, döyüş hazırlığının, döyüşçülərin bir-birinə güvəninin, komandirlərə inamının mühüm amillər olduğunu qeyd edib.

Çıxışlardan sonra Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin mahnı ansamblı tərəfindən konsert proqramı təqdim olunub. Sonda veteranlar əsgərlərlə xatirə şəkli çəkdiriblər.

**Yalçın Abbasov**

3_Layout 1 29.01.2024 18:39 Page 1



# HƏRBİ HİSSƏLƏRDƏ ŞƏXSİ HEYƏTİN ASUDƏ VAXTI SƏMƏRƏLİ TƏŞKİL OLUNUR

Hərbi xidmətdə şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə təşkil edilən tədbirlər zamanı hərbi qulluqçular maarifləndirilir, onların dünyagörüşlərinin, mədəni-estetik səviyyələrinin düzgün formalaşması əsas məqsədlər olaraq qarşıya qoyulur.

Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının “DİN-in Daxili Qoşunlarda tərbiyə işinin təşkili haqqında” müvafiq Direktivinin tələblərinə əsasən, qoşunların Ali Hərbi Məktəbi, hərbi hissə və bölmələrində də müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının asudə vaxtının səmərəli təşkili xüsusi diqqətdə saxlanılan məqamlardan biridir. Təbiidir ki, hərbi xidmətin çətinliklərinə dözümlülük göstərən hər bir əsgər üçün istirahət vaxtının effektiv və maraqlı keçirilməsi tərbiyəedici və stimulverici amildir.






Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarə rəisinin “İstirahət və bayram günlərində şəxsi heyətin asudə vaxtının səmərəli təşkil edilməsinə dair” müvafiq göstərişi sözügedən tədbirlərə diqqətin artırılmasının təzahürüdür. Göstərişin icrasından irəli gələn məsələlərin həlli aidiyyəti vəzifəli şəxslər tərəfindən təşkil olunur. Bölmələrdə günün nizam qaydalarına əsasən, məlumat saatı, tərbiyə işi, Azərbaycan Dövlət Televiziyasının “Xəbərlər” proqramına baxış, mədəni istirahət və kütləvi idman tədbirləri üçün vaxt ayrılır. Tərbiyə işinin müxtəlif forma və üsullarından geniş istifadə edilməklə, istirahət və bayram günlərində mühazirə, söhbət, kateqoriya üzrə hərbi qulluqçuların ümumi yığıncağı, təbriketmə mərasimləri, ictimai-siyasi oxu, disput, viktorina, mövzu axşamı, görüş və özfəaliyyət kollektivinin konserti keçirilir, şəxsi heyət Heydər Əliyev mərkəzlərinə, muzeylərə, tarixi məkanlara və mədəniyyət abidələrinə ekskursiyalara aparılır. Mədəni-kütləvi tədbirlər, o cümlədən özfəaliyyət kollektivinin konserti istirahət və bayram günlərində, idman tədbirləri isə bayram günlərində əlavə planlar üzrə təşkil olunur. Həmçinin bayram günləri tədbirlərinə veteranların şəxsi heyətlə görüşləri də daxil edilir.

Müəyyən olunmuş saatlarda asudə vaxtın təşkilinə cavabdeh şəxslər bölmənin hərbi qulluqçuları ilə birlikdə disputlar, viktorinalar keçirir, müxtəlif idman oyunları və başqa tədbirlər təşkil edirlər. Şənbə günləri əsgərlər yerli radio dinləyir, hərbi vətənpərvərliyi tərənnüm edən musiqilərə qulaq asırlar.

Bayram günlərində musiqi səsləndirmək, konsert proqramı təşkil etmək, xidmətdə fərqlənən əsgərlərimizi musiqi ilə təbrik etmək, mədəni yürüşlər keçirmək çox faydalıdır. Şəxsi heyətin asudə vaxtını daha maraqlı keçirmək üçün ziyalılar və incəsənət xadimləri ilə görüşlər, istirahət axşamları, məşqlər və s. tədbirlər də təşkil oluna bilər. Eyni zamanda şəxsi heyətə ailəsinə məktub yazmaq, bədii kitabları mütaliə etmək, şahmat və dama oynamaq, “Əsgər” qəzetini oxumaq üçün imkan verilməsi də nəzərə alınmalıdır.

Bununla yanaşı, Vətən müdafiəçilərinin hərtərəfli mənalı istirahəti üçün əlverişli şərait yaradılır, onların psixoloji gərginlikləri yüngülləşdirilir, asudə vaxtlarda maraqlı mövzularda söhbətlər aparılır, xalqımızın milli mənəviyyatına uyğun və hərbi-vətənpərvərlik tərbiyəsi istiqaməti üzrə həftədə bir dəfədən az olmayaraq videofilmlər nümayiş olunur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımızın keçdikləri şərəfli döyüş yolu, düşmənə göz açmağa imkan verməyən qəhrəmanlarımızın torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəlmələri, bəzilərinin qazi olmaları haqqında vətənpərvərlik söhbətləri aparılır. Daxili Qoşunların cəsur hərbi qulluqçuları haqqında ümumi məlumat verilir, əsgərlərə onların keçdikləri döyüş yolu örnək göstərilir.

Nəticə etibarilə şəxsi heyətin asudə vaxtının faydalı təşkili onlarda ruh yüksəkliyinə və hərbi xidmətə marağın artmasına səbəb olur.

**kapitan Nigar Ağayeva**







*Qazilərimiz*

# CƏSUR VƏ QALİB DÖYÜŞÇÜ OLMAQ ŞƏRƏFDİR

Müharibənin çətin sınaqlarından keçən, onun ağrı-acılarını üzərində hiss edən, odlu səngərlərdə dəfələrlə ölüm təhlükəsi ilə üzləşən, ön cəbhənin barıt qoxulu günlərinin xatirələrini həyatı boyu unutmayan hər bir döyüşçü bu şərəfli adı öz fədakarlığı ilə qazanıb. Döyüşçü üçün vətənpərvərlik müqəddəs amaldır. Bu amal uğrunda şəhadətə ucalan və qazi olan mərd oğullar xalqımızın fəxridirlər.

Şanlı zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən qazi olaraq geri qayıdan döyüşçülərdən biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, istefada olan çavuş Baxşalıyev Ümman Zahid oğludur.

O, 1992-ci il oktyabrın 10-da Bərdə rayonunun Mollalı kəndində doğulub. Zahid Baxşalıyev və Nərgiz Baxşalıyevanın üç oğul övladından biridir. Ümman qardaşları Vüsal və Mikayıldan yaşca kiçikdir. Zəhmətkeş və mənəvi dəyərlərimizə bağlı olan ailədə böyüyərək boya-başa çatıb. Valideynləri onu ləyaqətli övlad kimi yetişdiriblər, aldığı tərbiyə müsbət şəxsi keyfiyyətlərinin formalaşmasında vacib rol oynayıb.

Nəcəfağa Quluyev adına Mollalı kənd tam orta məktəbinin məzunudur. Orta məktəbdə təhsil alarkən riyaziyyat, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Məktəbli olduğu dövrdən hərbçi peşəsinə rəğbəti var.

Yeniyetmə yaşlarından idmana həvəslə yanaşıb, fiziki hazırlığını inkişaf etdirmək üçün məşqlər edib, zərərli vərdişlərdən uzaq durmağı, sağlam həyat tərzini qorumağı bacarıb. Həmçinin ev təsərrüfatı işlərində valideynlərinə və qardaşlarınaköməyini heç vaxt əsirgəməyib. Hərbi xidmətə yollananadək rəngsaz sənəti üzrə işləyib.

2010-cu ilin oktyabr ayında Ümman DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25032 saylı hərbi hissədə hərbi and içib. 12318 saylı hərbi hissənin komendant bölüyündə xidmətini davam etdirib. Hərbi hissənin döyüş bayrağının mühafizəsində dayanan əsgərlərdən biri olub. Nümunəvi xidmətinin nəticəsi olaraq komandirləri tərəfindən barəsində müxtəlif həvəsləndirmələr tətbiq edilib. Beləliklə, əsgər olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

2012-ci ilin aprel ayında Ümman öz arzusu ilə qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Bu qərarı verərkən valideynləri ilə məsləhətləşib, onların xeyir-duasını alıb. Öncə 16077 saylı hərbi hissənin motoatıcı taborunun motoatıcı bölüyünün tuşlayıcı operatoru vəzifəsində xidmət edib. Xızı təlim mərkəzində təşkil olunan xüsusi təyinatlı kursunu yüksək nəticələrlə bitirdikdən sonra isə 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətə başlayaraq avtomobil yarımqrupunun tuşlayıcı operatoru, atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun tuşlayıcısı və xüsusi həmlə qrupunun snayperi vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub. Komandirləri tərəfindən bir neçə dəfə mükafatlandırılıb. Şəxsi heyət arasında hörmət qazanıb.



Döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, peşə vərdişlərinin təkmilləşdirilməsi üçün o, davamlı şəkildə öz üzərində çalışıb. Dəstənin təlimlərində peşəkarlığını möhkəmləndirib. Xidmət müddətində II məharət dərəcəsinə yiyələnib. Polis əməkdaşlarının da iştirak etdikləri göstərici təlim və məşğələlərdə taktiki, atəş və fiziki hazırlığı ilə fərqlənib.

Gəncə şəhərində keçirilən bir sıra kütləvi tədbirlər zamanı Ümman ictimai qaydanın və asayişin qorunması üzrə tapşırıqları ayıq-sayıqlıqla icra edib. Koronavirus pandemiyası ilə əlaqədar Göygöl rayonunun ərazisində xüsusi karantin rejiminin təmin olunması üzrə xidmətə çıxaraq həvalə edilən vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci ilin avqust ayında o, xüsusi təyinatlı bölmələrin taktiki təlimlərinə qatılaraq yüksək döyüş hazırlığı ilə seçilib.

44 günlük Vətən müharibəsi onun da hərbçi həyatında dərin iz qoyub. Qeyd edim ki, müharibə zamanı Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları bütün istiqamətlərdə düşmənə qarşı mətinliklə döyüşüblər. Ümman ilk gündən ön cəbhədə erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub. Xüsusi təyinatlının döyüş yolu Murovdağ silsiləsinin yüksəklikləri, Kəlbəcər rayonunun Yanşaq kəndi istiqaməti, Cəbrayıl rayonunun Süleymanlı, Qışlaq, Xocavənd rayonunun Hadrut, Tuğ, Azıx, Böyük Tağlar, Zərdanaşen (rayonun ərazisindəki Qırmızı Bazarın ətrafı da daxil olmaqla), Xocalı rayonunun Çanaqçı, Dəmirçilər yaşayış məntəqələri və Şuşa şəhərindən keçib. Tərkibində döyüşdüyü taborda təhkim olunan snayper tüfəngi və avtomatla sərrast atəş açaraq erməni hərbçilərinə qan uddurub. Düşmənin atəş nöqtələrinin susdurulması, pusquya salınması, işğal altındakı ərazilərə sızma fəaliyyətlərində cəsurluq göstərib. Müxtəlif döyüş tapşırıqlarını icra edərkən işğalçıların canlı qüvvəsinin və texnikasının məhv edilməsinə öz töhfəsini verib. Düşməndən qənimət götürdüyü silah-sursatdan ermənilərin özlərinə qarşı döyüşlərdə istifadə etmək imkanını da əldən buraxmayıb. Çevikliyi, sayıqlığı, dözüm və iradəsi gərəkli keyfiyyətləri olaraq müharibə şəraitində qarşıya qoyulan hədəflərə çatmasında vacib rol oynayıb. Döyüşlərdə yaralanan silahdaşlarına özünü yetirib, həyatını düşünmədən onları atəş altındakı yerlərdən çıxarıb.

Ağır döyüşlərdən keçərək Qarabağın tacı Şuşaya yaxınlaşmaları silahdaşları kimi onu da ruhlandırıb. Şəhər ətrafındakı yüksəkliklərin və yolların nəzarətə götürülməsi, təcavüzkarın müdafiə mövqelərinin ələ keçirilməsində döyüşçü məharətini əsirgəməyib.

Noyabrın 6-da gecə saat 4-5 radələrində Şuşa şəhərinin yaxınlığında, “Üçyol” adlanan yerdə gecəgörmə cihazı ilə müşahidə apararkən düşmən snayperinin açdığı atəş nəticəsində Ümman sinəsindən yaralanıb. Döyüşçü yoldaşı gizir Oruc Bağırov ona ilk tibbi yardım göstərib. Yaralanmasına baxmayaraq, geri çəkilməyib, gücü tükənənədək vuruşmağa, işğalçılara atəş zərbəsi endirən silahdaşlarına dəstək olmağa can atıb. Noyabrın 8-də Şuşanın işğalına son qoyulduqdan sonra o, axşam vaxtı Hadruta təxliyyə edilib.

Xüsusi təyinatlı yaralanması ilə əlaqədar ayrı-ayrı xəstəxanalar və Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub, onun üzərində bir neçə dəfə cərrahiyyə əməliyyatı aparılaraq, həm güllə, həm də xırda qəlpələr bədənindən çıxarılıb. Üzərindəki zirehli gödəkçə döyüşçünü güllənin öldürücü təsirindən qoruyub, bununla belə, yaralanması nəticəsində ürəyində və ağciyərində müəyyən fəsadlar yaranıb. Ümmana 2-ci əlillik dərəcəsi verilib. 2021-ci ilin avqust ayında o, hərbi xidmətdən istefaya buraxılıb.

Vətən müharibəsi iştirakçıları: 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri gizir Vüsal Əhədov, atəş təminatı qrupunun snayper yarımqrupunun komandiri gizir Oruc Bağırov, xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Yasin Qasımov, xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Mustafa Şəmşiyev və qazi, istefada olan çavuş Pərvin Şahməmmədov Ümmanın xidmət və döyüş yoluna yaxından bələd olan silahdaşlarıdır. Onlar da çətin döyüş sınaqlarından keçiblər. Bildirdilər ki, Ümman vətənpərvər, hərbi anda sadiq, peşəsini sevən hərbi qulluqçu kimi tanınıb, xüsusi təyinatlı olmasından qürur duyub. Müharibə zamanı ruh yüksəkliyi, qorxmazlığı, döyüş qabiliyyəti ilə fərqlənərək, hücumda və müdafiədə, digər vəziyyətlərdə düşmənə amansız zərbələr vurub. Snayper ilə işğalçıların komandirlərini, iriçaplı atıcı silaha malik hərbçilərini məhv edərək, döyüşçülərimizə üstünlük qazandırıb. Döyüşlərdən birində Yasin xəsarət alarkən, Vüsal isə yaralanarkən Ümman onların arxaya təxliyyəsi üçün özünü təhlükəyə atıb. Silahdaşları Ümmanın etibarlı yoldaş olduğunu vurğuladılar, onunla həmişə əlaqə saxladıqlarını, vaxt tapıb görüşdüklərini söylədilər.

Azərbaycan Respublikası Prezidentinin 18, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Ü.Baxşalıyev “Döyüşdə fərqlənməyə görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “İgidliyə görə”, “Cəsur döyüşçü” medalları, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamı ilə “Vətən müharibəsi iştirakçısı” medalı, Daxili işlər nazirinin 26 iyun 2021-ci il tarixli əmri ilə III dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilib.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə çavuş Ü.Baxşalıyevə zoğalı beret daşıma hüququ verilib.

Ümman öz nəslinin yeganə qazisidir. O, 1941-1945-ci illərdə Berlinədək alman faşistlərinə qarşı döyüşmüş Qüdrət İsmayılovun nəvəsidir.

Sabiq hərbi qulluqçumuz Bərdə rayonunda məcburi köçkünlər üçün salınmış qəsəbədə yerləşən, Şuşa şəhərinə aid olan 18 saylı tam orta məktəbdə çağırışaqədərki hazırlıq müəllimi, hərbi rəhbər işləyir. Gəncləri hərbi xidmətə hazırlayır.

Bərdə rayonunun Divanlı kəndində yaşayan qazi üçün Şorəlli kəndində dövlət tərəfindən ev tikilir. 2017-ci ilin dekabr ayının 10-da Nərmin xanımla ailə quran Ümmanın İbrahim, Nərgiz və Zeynəb adlı övladları var. Ailəsi, qohum-əqrəbası, həmyerliləri, ümumilikdə bütün tanıyanlar onunla fəxr edirlər.

Müharibədə sağlamlığını itirən qazi bu gün də müalicəsini davam etdirir. Buna baxmayaraq, “Vətənin hər bir çağırışına hazıram” deyir.

**Yalçın Abbasov**

4_Layout 1 29.01.2024 18:43 Page 1



# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, yanvar ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili qoşunların baş idarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.





Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir.

Çağırış qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-nevropatoloq, həkim-terapevt, ordinator-ümumi cərrah, həkim-endokrinoloq və baş ordinator-rentgenoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda flüoroqrafik müayinə keçirilib.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu onlara müvafiq məsləhətlər verib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Nigar Ağayeva**

# ŞƏXSİ HEYƏTİN DÖYÜŞ VƏRDİŞLƏRİ TƏKMİLLƏŞDİRİLİR

12565 saylı hərbi hissənin əsas tədbirlərin və döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına uyğun olaraq, hərbi qulluqçularla təlim-atış çalışmaları, praktiki məşğələ və təlimlər keçirilir. Bu zaman şəxsi heyətin döyüş hazırlığının təkmilləşdirilməsi, təhkim olunan müxtəlif atıcı silahların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəməsi, habelə mükəmməl atış bacarığına yiyələnməsinə xüsusi diqqət yetirilir.





Qarlı-şaxtalı havalarda, çətin relyefli ərazilərdə döyüş tapşırıqlarının yüksək peşəkarlıqla icrasına nail olunması məqsədilə şəxsi heyət təlim-atış çalışmasına cəlb edilib. Havanın əlverişsiz olmasına baxmayaraq, aşkar olunmuş hədəflər yüksək sərrastlıqla və hərbçi ustalığı ilə məhv edilib.

Təlim-atış çalışmasının icrası zamanı bölmələrin ahəngdar fəaliyyəti təmin olunub, bu sahə üzrə təhlükəsizlik qaydalarına ciddi riayət edilib.

**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ QULLUQÇULARIN SAĞLAMLIĞININ QORUNMASI DİQQƏTDƏ SAXLANILIR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir. 25032 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Tibb xidmətinin tibb məntəqəsinin həkim-terapevti tibb xidməti leytenantı Xamis Niftaliyev məlumat verdi ki, xidmət gündəlik olaraq öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir. İclas zamanı gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.



Tibb xidmətinin tibb məntəqəsinin hərbi qulluqçuları savadları, bacarıqları, nizam-intizamları ilə fərqlənir, hərbçi yoldaşlarına örnək göstərilir, qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Tibb xidməti leytenantı X.Niftaliyev söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Sanitar təlimatçı-dezinfektor baş çavuş Pərvin Gülmalıyev tərəfindən əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə ambulator müalicəyə göndərilir.

Bundan əlavə, xəsarət alanlara, təxirəsalınmaz xəstələrə həkim nəzarəti altında tibbi yardım göstərilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə və saz vəziyyətdə olmasına, onların sterilizasiyasına daim diqqət yetirilir, xidməti sənədlərin vaxtlı-vaxtında və düzgün icrası həyata keçirilir. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin olunur.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# HƏRBİ QULLUQÇUNUN BAŞLICA MƏRAMI LAYİQLİ XİDMƏTDİR

Baş çavuş Orxan Cəfərov 1994-cü il dekabrın 11-də Yevlax rayonunun Malbinəsi kəndində anadan olub. 2001-2012-ci illərdə öz doğma kəndində yerləşən Nizami Gəncəvi adına tam orta məktəbdə təhsil alıb. 2013-cü ilin yanvar ayının 10-da 25032 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. 2014-cü ildən 16073 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2019-cu il avqustun 24-dən bu günə kimi 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirir. Hazırda dəstənin xüsusi əməliyyat qrupunun pulemyotçu-atıcısı vəzifəsindədir.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində öz üzərində çalışır. Xüsusi təyinatlı dəstədə xidmətin şərəfli və çətin olduğunu bildirən baş çavuş O.Cəfərov fiziki və atəş hazırlığı göstəricilərinin qoyulan normativlərə uyğun olması, habelə silah və döyüş sursatlarının saz vəziyyətdə qorunub saxlanılması üçün əlindən gələni əsirgəmir. Gündəlik xidməti tapşırıqlarını uğurla icra edən xüsusi təyinatlı hərbi hissə komandanlığı tərəfindən dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Qeyd edək ki, o, Vətən müharibəsi iştirakçısıdır.

Vətən qarşısında olan borcunu ləyaqətlə yerinə yetirməyi xidmətinin ilk illərindən qarşısına məqsəd olaraq qoyub. Dəstə komandiri tərəfindən verilən tapşırıqları çevik şəkildə, keyfiyyətlə icra edir. Kollektivdə xidmət yoldaşları ilə münasibətini səmimi dostluq və yoldaşlıq prinsipləri əsasında qurmağı bacarır.

Bir xüsusi təyinatlı kimi özünü doğrultmağı bacaran hərbi qulluqçumuza tutduğu yolda yalnız nailiyyətlər arzu edirik.

**kapitan Nigar Ağayeva**

# VƏZİFƏLƏRİNİN İCRASINA VİCDANLA YANAŞAN KARGÜZAR

25032 saylı hərbi hissənin intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından biri çavuş Bəyaz Şadlinskayadır. O, 1992-ci ilin sentyabr ayının 15-də Hacıqabul rayonunda anadan olub. Orta təhsillidir. 2012-ci ildə Şirvan Şəhər Peşə Liseyini mühasibatlıq ixtisası üzrə bitirib. 2014-cü ildən Daxili Qoşunların sıralarındadır. 12318, 16075 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2021-ci ilin iyul ayının 7-dən 25032 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin kargüzarı (əşya xidməti üzrə) vəzifəsində xidmətini davam etdirir. Qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. Funksional vəzifələrinin icrasına vicdanla yanaşır. Ötən müddətdə hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.



Çavuş B.Şadlinskaya bildirdi ki, işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sülh dövrünün əşya təminatı haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidməti kargüzarlığın aparılmasına dair Qaydalar"ın və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edir. Maddi vəsaitlərin və təminatda duran şəxsi heyətin uçotuna ciddi nəzarət edilməsinə, sənədlərin qorunub saxlanılmasına, anbarlardan maddi-texniki vəsaitlərin buraxılması üzrə sənədlərin düzgün tərtibinə, anbara daxil olan maddi-texniki vəsaitlərin uçot kitablarına vaxtlı-vaxtında mədaxil edilməsinə cavabdehlik daşıyır. Bundan əlavə, şəxsi heyətin uçotunu aparır və gündəlik olaraq hərbi hissənin qərargahının uçot məlumatları ilə tutuşdurur. Mədaxil və məxaric sənədlərinin tərtibatına nəzarət edir. Hər ayın sonunda bölüklərdə və əşya xidmətinin obyektlərində olan əşya əmlaklarının uçotu ilə xidmətin uçotunu üzləşdirir və onun müqayisəli yoxlamasını aparır. Maddi-texniki təminat xidmətlərinin əşya xidmətinin rəisi kapitan Xəqani Şirizadə də çavuş B.Şadlinskayanın fəaliyyətindən razı qaldığını söylədi.

Hərbi qulluqçumuza layiqli xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

### Mərakeş Türkiyədən 200-dən çox "Cobra-2" zirehli vasitəsi sifariş edib

Mərakeş Kral Silahlı Qüvvələri Türkiyə bazarından alışlarla hərbi texnikasını gücləndirməyə davam edir. Ordu.az xəbər verir ki, Mərakeş bu yaxınlarda Türkiyənin müdafiə şirkəti "Otokar" tərəfindən istehsal olunan 200-dən çox "Cobra-2" zirehli vasitəsi sifariş edib.



Maraqlıdır ki, bu vasitələrin təxminən 20-si Birləşmiş Millətlər Təşkilatının sülhməramlı missiyalarında iştirak edən Mərakeş sülhməramlılarına ayrılacaq.

"Otokar"ın 2023-cü il dekabrın 14-də təqribən 136 milyon dollar olaraq təfərrüatlarını açıqladığı sifarişlə bağlı müqaviləyə vasitələr üçün ehtiyat hissələri, texniki xidmət avadanlığı və təlim xidmətləri də daxildir.

Tədarüklərin 2024-cü ilin sonunda başlaması və növbəti il ərzində partiyalar şəklində başa çatdırılması gözlənilir.

## Allah rəhmət eləsin

16076 saylı hərbi hissənin komandanlığı mayor Vüsal Abdullayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**